# Uğur fəlsəfəsinin ən dərin qatlarında inam dayanır



**"Azərbaycanın xoşbəxt gələcəyinə inanıram". Bu qəti və inamlı sözləri Prezident İlham Əliyev 31 oktyabr 2003-cü ildə keçirilmiş andiçmə mərasimində söyləyib. 21 il əvvəl böyük uzaqgörənliklə deyilmiş sözlər əməllərdə, xalqın həyat səviyyəsində, ölkənin dünyadakı mövqeyində, tarixi qələbədə bu gün öz layiqli təsdiqini tapıb. Prezident Vətən naminə, xalqının rifahı, ölkənin iqtisadi dirçəlişi, hərbi qüdrəti üçün, xoşbəxt gələcək, torpaqların işğaldan azad edilməsi naminə and içdi.**

Tarix və zaman göstərdi ki, xalq öz Liderinə, Prezident də doğma xalqına inam bəslədi. Həmin mərasimdə Azərbaycanın inkişaf və tərəqqisinin konturlarını dəqiqliklə cızan dövlət başçısının nitqində dörd əsas məqam xüsusilə diqqəti cəlb edirdi. **Birinci** məqam: Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi - Ümumi Daxili Məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi. **İkinci:** Neft strategiyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar hadisədir. Bütün beynəlxalq standartlara cavab verən şəffaf qurumdur. Beynəlxalq maliyyə qurumları onun fəaliyyətini çox yüksək qiymətləndirirlər. **Üçüncü:** Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir. **Dördüncü:** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir.

Dövlət başçısı qətiyyətlə, liderlik ruhu ilə əminliklə demişdir: "Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır".

Cənab Prezident yüksək əzmlə, dünyanı heyrətə salan fədakarlıqla Azərbaycanda dövranın nəbzini və mənzərəsini dəyişməyə nail oldu, verdiyi vədləri yerinə yetirdi. Tarix sübut etdi ki, Prezident İlham Əliyev dediklərini edən liderdir, sözü ilə əməli həmişə üst-üstə düşür. Ermənistanın hərbi rəhbərlərinin və qondarma separatçı rejimin münaqişə dövründə ölkəmizə qarşı törətdiyi çoxsaylı müharibə cinayətlərinə, kütləvi qırğın və soyqırımı aktlarına, terrorçuluğa, vandalizmə Azərbaycan özü son qoydu. Cəsarətlə, inadkarlıqla, fədakarlıqla, qəhrəmanlıqla, şərəflə, siyasi və hərbi güc ilə Azərbaycan cənubi Qafqazda mövcud reallığı, status-kvonu dəyişdi. Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Silahlı Qüvvələrimizin bölmələri tərəfindən icra edilmiş "Qisas", "Dəmir Yumruq" əməliyyatları Azərbaycan xalqının hərb tarixinə qızıl hərflərlə yazıldı. İşğalçılığı, nasizmi dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi. Qalib Ali Baş Komandan tərəfindən üçrəngli bayrağımız Sərsəngdə, Ağdərədə, Əsgəranda, Xocavənddə, Xankəndidə göylərə qaldırıldı, nə xoş ki, indi bu bayrağı bütün dünya seyr edir. Azərbaycanın uzun illər apardığı mübarizə işğal olunmuş torpaqlarımızın azadlığı ilə yanaşı, həm də bütövlükdə erməni faşizminə qarşı aparılan savaşı başa çatdırdı. Cəmi 20 ildə iki yüz illik problem həll edildi.

Cahanda baş verən hadisələr artıq dünyanın taleyini dəyişir. Azərbaycanın taleyini yaxşılığa və qələbəyə çevirən liderimizin ideyaları reallığa çevrilir, şaxələnir, gələcəyə nikbin baxışlarda, sarsılmaz mövqedə öz əksini tapır. 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində xunta rejiminin, separatçıların əski parçasına bənzəyən bayrağı Qarabağ fatehinin ayaqları altına sərildi. Azərbaycanın milli qürur məsələsini həll edən Prezidentin qədim Azərbaycan torpağından, cəmi 23 saata işğaldan azad edilən Xankəndidən xalqa müraciəti ən qürurlu, şərəfli tariximizin qızıl səhifəsidir və biz bu müqəddəs anları, xoşbəxtliyi yaşadıq, bu xoş duyğular ruhumuzdan, milli mənliyimizdən süzülüb keçdi. Düz iyirmi bir il əvvəl həmin gün xalq öz Prezidentinə inam nümayiş etdirərək onun yenidən dövlət başçısı seçilməsinə xeyir-dua verdi. Xalq yanılmadı, öz övladına dayaq oldu, sevdilər, məhəbbətlə, səmimiyyətlə, ürəklə onu qucaqladılar. Xalq həm də çox əhəmiyyətli bir təkamülün şahidi oldu. **"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər"** Forumunda Azərbaycan Prezidentinin "... düşünürəm, biz sülh gətirmişik. Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. ...biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu" sözləri bu məsələdə ermənipərəst mövqedə dayanan qüvvələrə çox sarsıdıcı zərbə təsiri bağışladı.

Əsası ulu öndər tərəfindən qoyulmuş inkişaf strategiyası ölkəmizdə uğurla davam etdirilir, iqtisadiyyatın genişləndirilməsi və şaxələndirilməsi, qeyri-neft sektorunun dirçəldilməsi, səmərəli, davamlı sosial-iqtisadi siyasət və həyatın bütün sahələrini əhatə edən iqtisadi islahatlar davamlı xarakter alıb, tərəqqinin üfüqləri daha da genişlənir. Bu gün Azərbaycanı dünyaya tanıdan inkişafın əsas hədəfləri 21 il bundan əvvəl müəyyən edilib. 2003-cü ildə keçirilən prezident seçkilərində doğma xalqının inam və etibarını qazanan İlham Əliyev prezidentlik fəaliyyətinin ilk günlərində "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərman imzaladı. Regionların inkişafı üçün uğurla icra edilən birinci Dövlət Proqramının qəbul edilməsi hər şeydən əvvəl bölgələrdə inkişafın əsaslarını yaratdı və yeni bir mərhələnin təməlini qoydu. Dirçəliş və tərəqqi hər birimizin gözləri qarşısında baş verdi. Bundan başqa, dövlətimizin başçısı əsas diqqətini insan amilinə, sosial problemlərin həllinə, aqrar sahəyə və sağlam vətəndaş cəmiyyətinin formalaşmasına yönəldib və uğura aparan islahatlar dönmədən həyata keçirilir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayır. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması Dövlət proqramlarının icra edilməsinin əsas nailiyyətləridir. Prezidentin rəhbərliyi ilə mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi siyasət tədbirləri müəyyənləşdirilərək həyata keçirilir və nəticədə makroiqtisadi sabitlik təmin olunur, ölkə iqtisadiyyatı öz dayanıqlılığını və inkişaf tempini saxlaya bilir. Deyirlər, rəqəmlər ən yaxşı bələdçidir: 4 Dövlət Proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir.

Ötən il oktyabrın 15-də Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaldan Prezident, Qalib Ali Baş Komandan İlham Əliyev bildirdi ki, antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın. Və Lider qətiyyəti ilə buna imkan verilmədi, düşmən sarsıdıcı zərbə ilə torpaqlarımızdan qovuldu. Dövlətimizin başçısının təbirincə desək, biz tarix yaratdıq, iki yüz illik erməni işğalına son qoyduq. Müharibədən ötən son dörd ilə nəzər salanda aydın olur ki, Prezidentin Qarabağa və Şərqi Zəngəzura hər ayda iki səfəri həyata keçirilib. Həm də bu səfərlərdə dinamika və balans gözlənilir. Belə ki, işğaldan azad olunmuş ərazilərin bərpa və yenidən qurulmasının prioritet elan edilməsinə baxmayaraq, ölkəmizin digər şəhər və rayonlarının inkişafı da diqqətdən kənarda qalmır. Dövlət başçısının regionlara səfərləri bölgələrin yüksəlişinin davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu bir daha təsdiqləyir. Ümumiyyətlə, regionların inkişafı üçün uğurla reallaşdırılan Dövlət proqramları ölkədə qeyri-neft sektorunun davamlı artımına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun təmin olunmasına təkan verir.








Azərbaycan ərazi bütövlüyünü təmin etməklə Cənubi Qafqazda əsas söz sahibinə çevrilib, regional və beynəlxalq mövqelərini getdikcə möhkəmləndirib, iqtisadi sahədə ciddi irəliləyişlərə, eyni zamanda, regionların sürətli inkişafına nail olunub. Prezident İlham Əliyevin Azərbaycanın bölgələrinə mütəmadi səfərləri regionların sosial-iqtisadi inkişafına təkan verməklə, aparılan işlərlə yerində tanış olmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Üçrəngli bayrağımız işğaldan azad edilən ərazilərdə qürurla dalğalanır, qələbənin, zəfərin, rifahın, inkişafın, qəhrəman xalqın qalib ölkəsi, heç bir yerdən kömək gözləmədən Qarabağı və Şərqi Zəngəzuru yenidən quran, düşmənin dağıtdığı və taladığı şəhərlərə, kəndlərə ikinci həyat verən, dünyada sülh carçısı kimi tanınan Azərbaycan öz qədim tarixinin ən şərəfli səhifəsini yazır. İkinci Qarabağ müharibəsində mərmilərin şırım açdığı, düşmənin xarabalığa çevirdiyi, igid oğullarımızın qanı tökülən torpaqlarda ədalətin, qələbənin, inkişafın, quruculuğun və şərəfli qayıdışın təntənəsi yaşanır. Vaxtilə göz yaşları içərisində tərk etdikləri ata-baba yurdlarına indi sevinclə, qürurla, şükranlıqla, hədsiz minnətdarlıqla qayıdan keçmiş məcburi köçkünlərin taleyinə və yaddaşına yeni bir səhifə həkk olunur. Azərbaycan tarixinin şanlı, qürurlu, qəhrəmanlıq və davamlı inkişaf tarixinin və həm də dünyada baş verən hadisələrin şahidləriyik.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma uğurla davam etdirilir. Dörd il bundan əvvəl isə doğma ev, ocaq həsrəti ilə keçmiş məcburi köçkünləri körpə uşaq kimi ağlardı, göz yaşları içərisində dədə-baba yurdlarından söz açan kimi, o dəqiqə də yurd yerləri elə bil onları öz ağuşuna alırdı, o yerlər heç yuxularından da çıxmırdı. Keçmiş zamanda danışmırdılar, sanki o yerlərlə nəfəs aldıqları kimi, orada yaşadıqları kimi, sanki öz ocağının başındaymış kimi danışırdılar. Artıq o əzablı və həsrətli illər arxada qalıb, otuz il didərgin yaşayan insanlar dədə-baba torpaqlarına qayıdırlar. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaları üçün Prezidentimiz İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına uğurla başlanılıb. Dövlətin keçmiş məcburi köçkünlərə hərtərəfli qayğısı onların həyat ümidini və gələcək arzularını, fəal vətəndaş mövqeyini xeyli artırır, Prezidentə və onun qəbul etdiyi qərarlara münasibət həmişə birmənalı olur, əsl xalq məhəbbəti qazanır. İşğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi, bu ərazilərdə həyatın əvvəlki məcrasına qaytarılması strategiyasında sənayeləşmə siyasəti mühüm yer tutur. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerli və xarici investisiyalar hesabına sənaye parklarının yaradılması prosesi getdikcə sürətlənir. Hazırda həmin ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi üçün lazımi infrastrukturun yaradılması sürətlə davam etdirilir.

Qarşıdakı əsas hədəflərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Azərbaycan indiyə kimi Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradır. Məhz ölkəmizin təşəbbüsü ilə ərsəyə gəlmiş Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların reallaşmasında böyük rol oynayır. Bu nəqliyyat dəhlizləri tarixi İpək yolunun bərpasında ciddi əhəmiyyətə malikdir. İndi isə belə dəhlizlərin sırasına daha biri əlavə olunur. Zəngəzurdan - tarixi Azərbaycan torpağından keçəcək və Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Türkiyə ilə birləşdirəcək dəhlizin əhəmiyyəti aydın nəzərə çarpır. Analitiklərin qənaətinə görə, Çin məhsullarının dünya bazarlarına, xüsusilə də Avropa bazarına çatdırılmasında çox mühüm xətt olan Orta Dəhlizin Zəngəzur qolunun Azərbaycanın, Türkiyənin, daha böyük mənada Rusiya və Çinin nəzarəti altında reallaşması ABŞ başda olmaqla, onun ətrafında birləşən kollektiv Qərbin qlobal güc iddialarına böyük zərbə vura bilər. Bu mənada bu gün Cənubi Qafqazda baş verən proseslər regional xarakterlə yanaşı, həm də geostrateji məna daşıyır.

Zamanın fövqündə dayanmaq, millətinə şərəf və qürur gətirmək, müqəddəs bayrağını ucaltmaq, məğlub xalqı qalib xalqa çevirmək, xəyalları gerçək etmək yalnız fatehlərə məxsusdur. Qarabağ problemini həll edən, Azərbaycanın yaralanmış xəritəsini bütövləşdirən, dəmir iradəsi, qətiyyəti, Vətən və xalq məhəbbəti, liderlik xarakteri ilə 30 illik erməni işğalına son qoyan, haqqı, ədaləti bərpa edən, milli qürurumuzu, şərəfimizi ucaldan Qalib Ali Baş Komandan İlham Əliyevin həyat təcrübəsinin, uğur fəlsəfəsinin ən dərin qatlarında inam dayanır.

**Salman ALIOĞLU,**
**"Respublika".**